MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ, XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ YAŞADILMA PROBLEMLƏRİ

Kübra Əliyeva
Sənətşünaslıq elmləri doktoru, professor
AMEA Arxeologiya və Antropologiya İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.307

Giriş. Bədii yaradıcılığın ən maraqlı sahələrindən biri olan və ənənələrilə minillərin dərinliklərinə uzanan Azərbaycan xalça sənəti xalqın mənəvi həyatı və məişəti ilə sıx bağlıdır. Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılan toxuculuq avadanlığı və erkən xalçaların ayrı-ayrı izləri, alimlərə, burada xalçaçılığın meydana gəlmə tarixini neolit dövrü ilə bağlamaq imkanını verir. Heyvandarlıqla məşğuliyyət üçün yararlı coğrafi şərait, təbii bitki rənglərinin bolluğu və ən qədim dövrlərdən həm oturaq əkinçiliklə, həm yarı-köçəri heyvandarlıqla, həm də şəhər sənətkarlığı ilə məşğul olan əhalinin həyat tərzindən irəli gələn xüsusiyyətləri, xalçaçılığın inkişafına və onun bölgələr üzrə özünəməxsus xüsusiyyətlərinin təşəkkül tapmasına yol açmışdır.

Azərbaycan xalçalarının araşdırılması ilə hələ XVIII əsrdən başlayaraq bir çox Avropa və eyni zamanda Şərq alimləri araşdırmalar aparmağa başlamışlar. Bunlar Avropada yaşayıb yalnız muzeylərdə olan materiallara əsasən, xalçaların təsnifatını verən xarici mütəxəssislər və bir də Azərbaycanda müxtəlif əsrlərdə olan səyyahlar tərəfindən öz əksini tapmışdır. XX əsrin əvvəllərinə qədər demək olar ki, fundamental araşdırmalar həm ruslar, orta Asiya və Azərbaycan tədqiqatçıları tərəfindən aparılmağa başlamışdır.

Azərbaycan xalça toxuculuğu sənəti Qarabağ, Təbriz, Qazax, Gəncə, Şirvan, Quba və Abşeron xalçaçılıq məktəblərinə bölünür. Azərbaycanın hər bir yerli məktəbinə məxsus xalçaları kompozisiya, ornament detalları, rəng və texnikasına görə bir-birindən fərqlənir.

Bu məktəblərin içərisində ən möhtəşəmi Qarabağ və Təbriz xalçaçılıq məktəbidir. Ondan sonra Şirvan, Qazax, Gəncə, Quba, Şirvan, ən sonda isə Abşeron xalçaçılıq məktəbidir. Bu məktəblər sadəcə olaraq, Lətif Kərimov tərəfindən xalçaların istər texniki, istər bəddi oxşar toxunuşuna görə, Quba-Şirvan, Gəncə-Qazax, Qarabağ və Təbriz qrupuna bölünmüşdü ki, və onun üç kitabında da bu cürə təsnif olunmuşdur [1; 2; 3].

Lakin bizim uzun illər Azərbaycanın demək olar ki, bütün bölgələrini gəzərkən apardığımız tədqiqatların nəticəsi olaraq, Azərbaycan xalçalarını ayrı-ayrılıqda, yəni möhtəşəmliyinə görə, Qarabağ, Təbriz, Qazax, Gəncə, Şirvan, Quba və Abşeron xalça məktəblərinə ayırmağı lazım bildik. Bunun əsas səbəbi materialın həddən artıq çoxluğuna, texnologiyaların fərqliliyinə, kompozisiya və rəng koloritinin fərqliliyi idi.

Bir məsələni də nəzərinizə çatdırmaq istəyirəm ki, tədqiqatçı kimi, xalçaların istər texnologiya və istərsə də digər xüsusiyyətlərinin xüsusi təsərrüfat və yaxud da ki, heyvandarlıq, əkinçilik, şəhər mühiti, saray və s. ayırmamızın əsas səbəbi də bunların bir-birindən fərqli cəhətlərinin üzə çıxması nəticəsində mümkün oldu. Halbuki, bu tədqiqatlardan əvvəl, xalça tədqiqatı ilə məşğul olan alimlər bunların hamısını Azərbaycan xalçaları adı ilə qeyd olunurdu. Tədqiqatlarımın nəticəsi olaraq, Azərbaycan xalçalarını 4 istiqamətə və 7 məktəbə ayırandan sonra bu bölgünün tamamilə düzgün olduğu öz təsdiqini tapdı. Aylarla, illərlə tərəkəmə həyatı ilə məşğul olan Qarabağ və Təbrizdə olan qaşqayların toxuduqları xalçaları nəzərə alaraq, onları

elə birinci qrupa aid etdik, şəhərdə yaşayıb əkinçilik və qismən də heyvandarlıqla məşğul olan xalçaları 2 qrupa, şəhərin özündə toxunan xalçaları 3 qrupa və saray üçün toxunan xalçaları isə 4 qrupa ayırdım. Məhz bundan sonra hər toplumun xalçalarına ayrıca tədqiqat işi apararaq kitab halında yazıb, çap etdirdim.



"Şuşa və uzaqda Xankəndi mənzil – qərargahı". Açıqca, XIX əsrin sonu

Qarabağ xalçaçılıq məktəbi

Qarabağ Azərbaycanın, eləcə də bütün Qafqazın qədim sivilizasiya mərkəzlərindən biri olmaqla bərabər, həm də regionun ən qədim insan məskənlərindəndir (Azıx mağarası e.ə. 1.5 milyon il). Qarabağın sərfəli təbii coğrafi şəraiti – alp çəmənliklərinin (Şahdağ, Murovdağ) mövcudluğu maldarlığın, yararlı münbüt torpaqları və bol suyu olan Kür və Araz çayları əkinçiliyin və bağçılığın inkişafı üçün zəmin yaratmışdır. Məhz buna görə də Qarabağda xalçaçılığın **dörd istiqaməti** inkişaf etmişdir. Buraya maldarlıqla məşğul olan - yayda dağlara, qışda arana köç edən elat tərəkəmələrin yaratdıqları xalçalar, oturaq kənd əhalisi arasında yayılan xalçalar, Qafqaz Albaniyasının iri şəhərlərində meydana gələn xalça kompozisiyaları və nəhayət, saray mühitində yaranan (XVIII əsr Qarabağ xanlığı) xalçalar aiddir [4].



"Simurq və əjdaha" təsvirli xovlu Bərdə xalçası, Berlin İncəsənət Muzeyi. XV əsr



Yun xovlu "Çələbi" xalısı. Bərdə, XVIII əsr.
Vaşinqton Tekstil Muzeyi. Ölçüsü: 531x231 sm



Şuşa. Əjdahalı-xətaili xalı. XVIII əsrin əvvəli.
Vaşinqton Tekstil Muzey. 3.58x1.75 sm



"Bağçada güllər" xovlu xalısı. XIX əsr.
Azərbaycan Milli Xalça Muzeyi



Firdovsinin "Şahnamə" əsərindən götürülmüş
"Rüstəm və Söhrab" xovlu Qarabağ xalçası. XIX əsr.
Azərbaycan Milli Xalça Muzeyi



Yan görünüşlü,hərəkətdə olan "Pələng" təsvirli Qarabağ xalçası. XIX əsr. Azərbaycan Milli Xalça Muzeyi



Xovlu xalça "Ləmpə". Qarabağ məktəbi, yun, 573x110 sm, XIX əsrin sonu – XX əsrin əvvəli

"Ləmpə" xovlu xalçası Qarabağ məktəbinin ən gözəl xalçalarındandır. Xalçanın ensiz haşiyələri az qala ümumi fona qarışır. Məlum olduğu kimi, Şuşa Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşanın evləri özünəməxsus monumental memarlığı və daxilindəki tavan və divar rəsmlərinin gözəl tərtibatı ilə seçilirdi. Qəbul salonları yağlı boyalarla işlənmiş, nəbati naxışlar, quş və heyvan rəsmlərilə bəzədilirdi. Xalçanın adı "ləmpə" sözündən (şuşalılar tavanı belə adlandırırdılar) əmələ gəlmişdir. Tavandakı rəsmləri xalça üzərinə köçürdükdə "ləçək türünc" kompozisiyasının onlarla variantı yaranırdı. Şuşalılar evlərini xalçalarla bəzəməyi xoşlayırdılar. Ən iri doqquz metrədək xalça dəstləri ("dəst xalı-gəbə") yalnız Şuşada toxunurdu. Onlar üç, yaxud dörd, nadir hallarda beş hissədən ibarət olurdu. Dəstin mərkəzi, ən iri hissəsi "xalı" adlanırdı. Ondan sağda və solda ensiz "yanlıq gəbə" adlanan xalçalar və bu qrupu kiçik ensiz "xalça başlıq" tamamlayırdı. Bunların hamısı, uzunluğu qırx metrədək uzanan və döşəməni başdan-başa örtmüş, nəhəng düzbucaq şəklini alırdı. Salon daha böyük olduqda, xalça dəstinə qapı ağzında "ayaqlıq" əlavə olunurdu. Xalçaların hər biri özünün kompozisiyası, naxışı və rəng seçimilə bir-birini tamamlayırdı.





Azərbaycan Milli Xalça Muzeyinin "Qarabağ xalça evi" adlı ekspozisiyasında Qarabağın saray xalıları: yuxarıda "Ləmpə", aşağıda isə "Qoca" adlı dəst xəli-gəbələri. Şəkil 2012-ci ildə tələbələrimlə birlikdə çəkilib

Tərəkəmələr arasında toxunan xalçalar yalnız xovsuz toxunuşlu olub, "Vərni", Tadı", "Zili", "Gədirgə", "Şəddə" adı ilə məşhurdur. Bu xalça və xalça məmulatlarının toxunuşunda onlarla texniki üslub tətbiq edilir. Tərəkəmələrin yaratdığı xalça və xalça məmulatlarının bəzəyində, əsrlər boyu dəyişmədən qorunub qan yaddaşı vasitəsilə nəsildən nəsilə ötürülən həndəsi elementlər (romb, kvadrat, üçbucaq, düzbucaq, S-vari elementlər), sadə və mürəkkəb quruluşa malik kompozisiyalar əsas yer tutur. Bundan əlavə külli miqdarda şamanlıq və totemizmlə bağlı işarə və simvollar bu kompozisiyaları tamamlayır.

"Xanlıq" xalçası özünün ornamental yaraşıqlı tərtibatı ilə kübar keyfiyyət daşıyır və onu saray xalçalarına aid etmək mümkündür. Bu xalçanın ilk nümunələri, çox güman ki, peşəkar rəssam tərəfindən yaradılmışdır. Sonralar əyri xətli nəbati rəsmlər təhrif edilmiş və həndəsi şəkil almışdır. Xalçanın adı Qubadlı şəhərinin (Qarabağ) 18 kilometr cənub-şərqində yerləşən Xanlıq kəndi, ikinci adı "Ağ çiçəklər" isə, xalçanın arasahəsini bəzəyən ağ rəngli çiçək rəsmləri ilə bağlıdır.



“Xanlıq”. “Ağçiçəklər”. XX əsr. (L.Kərimov. “Azərbaycan xalçası”. 1985, şək.123)



“Xanlıq”. Qarabağ məktəbi



“Qoca”. Qarabağ məktəbi

Qarabağın şəhər və kənd əhalisi istər xovlu, istərsə də xovsuz xalçalarda, maldar tərəkəmələrin xalçalarında mövcud olan həndəsi motivləri istifadə etməklə bərabər, bir-birindən öz orijinallığı ilə seçilən yüzlərcə stilizə edilmiş heyvan, quş və insan təsvirləri, eləcə də nəbati elementlər tətbiq edir. Əsasən böyük ölçülərdə olan Qarabağ xalı-xalçalarının arasahə kompozisiyasını nə-

bati göllər, stilizə edilmiş gül, çiçək, yarpaq, buta motivləri, qeyri-müəyyən formaya malik elementlər təşkil edir. Qarabağda hər kənd və şəhərin öz kompozisiyası vardır. Qarabağ məktəbi xalçalarının ilmə sıxlığı 30sm x 30sm-dən, 40sm x 40sm-ə qədərdir və 1 kv. m-də 90000-dən 160000-ə, bəzən isə 200000-ə qədər ilmə yerləşir. Qarabağ xalçaları ətli olub, ilmə hündürlüyü 6-10 mm-ə çatır.

"Qoca" adı ilə məşhur olan yan gəbələri, qeyd olunduğu kimi yalnız Qarabağ bölgəsinin paytaxtı Şuşa şəhərində toxunurdu.



Xovlu xalça – yarım gəbə, "Qoca". Qarabağ məktəbi, yun, 104x283 sm, XIX əsrin axırı – XX əsrin əvvəli

Eyni kompozisiyaya, koloritə, naxışlara malik olan dəst xalı-gəbələrinin ortalıq xalısının eni iki dəfə kənarədən böyük, uzunluqları isə eyni olurdu. Əsrlər boyu Təbriz (Cənubi Azərbaycan) xalça məktəbi ilə Qarabağ xalça məktəbi arasında sıx sənət əlaqələri olmuşdur. Təbrizdə yaranan kompozisiyalar Qarabağa köçür, Qarabağda yarananlar isə Təbriz məktəbinə keçirdi. Əgər Təbrizdə 30, 40, 50 kv.m xalılar böyük dəzgahlarda toxunurdusa, Qarabağ məktəbində böyük ölçülü dəzgahlar olmadığı üçün xalçalar üç və beş hissədən ibarət toxunub sonra geniş otaqlara salınaraq tam, bütöv bir xalı təsəvvürü yaradırdı. Təbriz məktəbinə xas olan "Əfşan" adlı nəbati gül-çiçək rəsmli kompozisiya Qarabağ məktəbinin "Qoca" adlı gəbələrində öz ilkin simasını dəyişərək daha monumental və ifadəli olmuşdur. "Əfşan"dakı zambaq, qərənfil, süsən gülləri "Qoca"da böyümüş, stilizə edilmişdir. Yalnız Şuşanın xalı-gəbələrində istifadə edilən qara fon üzərindəki nəbati elementlər çox qabarıq görkəmə malik olur. "Qoca", "Açma-yumma", "Xanlıq", "Balıq" və "Bulud" kompozisiyaları Şuşada toxunan xalı-gəbə dəstlərinin əsasını təşkil edir. Bu xalı-gəbələr tək Azərbaycan xalçaçılıq məktəbində deyil, bütün Şərq xalçaçılıq sənəti sahəsində unikal əsərlər hesab olunur [5, s. 8-39].

Qazax xalçaçılıq məktəbi. Azərbaycanın şimal-qərbində yerləşən Qazax şəhəri eyni adlı mahalın mərkəzi olub ən məşhur xalçaçılıq mərkəzlərindəndir. Maldarlıq, qismən də bağçılıqla bərabər xalçaçılıq da region əhalisinin qədim zamanlardan bu günədək davam edən əsas fəaliyyət sahəsidir.



Məfrəş. Qazax məktəbi, yun, kilim texnikası, 105x53x60 sm, XX əsr



Məfrəş. Qazax məktəbi, yun, kilim texnikası, 102x55x52 sm,
XX əsrin 40-cı illəri

Qazağın Qaymaqlı, Qıraqkəsəmən, Qarapapaq, Çaylı, Poylu, Tatlı, Qarahəsənli, Qızılhacılı, Ağköynək, Kosalar, Ağstafa, Xatunlu kimi xalçaçılıq mərkəzlərində "Qazax - Əjdahalı", "Şıxlı", "Salahlı", "Kəmərli", "Dəmirçilər", "Qaymaqlı", "Göyçəli", "Dağkəsəmən", "Öysüzlü" adlı xovlu xalçalar toxunmuşdur. Qazax məktəbinin xalçaları da öz adlarını çox zaman eyni adlı məntəqələrin adından alır. Qazax mahalının cənub-qərb hissəsində yerləşən, vaxtilə Azərbaycan torpaqları olub, sonralar Ermənistana qatılmış, Şəmşəddin, Bammak, İcevan, Qaraqoyunlu, Göyçə kəndlərində toxunan xalçalar öz kompozisiyalarına görə Qazax xalça məktəbinə daxildir. Qazax xalça məktəbinə daxil olan başqa bir qrup isə hal-hazırda Gürcüstan ərazisində yerləşən, Azərbaycanın qədim xalçaçılıq mərkəzi – Borçalı mahalında toxunan, "Borçalı", "Qaraçöp", "Qarayazı", "Qaçağan", "Ləmbəli" xalçalarıdır.



Xovlu xalça "Namazlıq". Qazax məktəbi, yun, 126x66 sm, XIX əsrin sonu – XX əsrin əvvəli

Qazax məktəbinin xovlu xalçaları, xalçanın arasahə mərkəzində yerləşən böyük ölçülü həndəsi göllərinə, stilizə edilmiş nəbati elementlərinə, totem xarakterli quş və heyvan təsvirlərinə görə seçilir. Xalçaların ümumi bədii tərtibatında ən çox yer tutan elementlər islamaqədərki (animizm, totemizm, şamanlıq, astralkült) dini və ibtidai fəlsəfi dünyagörüşünü əks etdirir. Qoç, qurbağa, tısbağa, əjdaha, müqəddəs ağac, səkkizguşəli ulduz, çərxi-fələk kimi təsvirlər bu qəbildəndir. Qazax məktəbi xalçalarının əsas rəngi qırmızı rəngin açıq qırmızıdan tünd qırmızıyadək olan ən müxtəlif çalarlarıdır. Tünd və kontrast rənglərdən, arasahə yerliyində isə ənənəvi qırmızı rənglə bərabər yaşıl rəngdən də istifadə edilməsi bu məktəbin əsas xarakterik xüsusiyyətlərindən hesab edilir. Qazax məktəbinin xalı-xalçaları həm orta, həm də böyük ölçülü olur. Sıxlığı 25sm x 25sm-dən, 30sm x 30sm-ə qədərdir. 1 kv.m-də 60000-dən, 160000-ə qədər ilmə yerləşir. Sıxlığı az olduğu üçün ilmə hündürlüyü daha artıq - yəni 6mm-dən, 12mm-ə qədər olur. Belə xalçalar da xalq arasında "ətli" xalçalar adlanır.



Xurcun. Qazax məktəbi, zili texnikası, yun, 47x117 sm, XX əsrin əvvəli

Tərəkəmələr əsrlər boyu çoxsaylı xovsuz xalça məmulatlarından - xurcun, məfrəş, başaltı, at torbası, duz torbası, çul, yəhərüstü və s. istifadə edirdilər. Bütün bu əşyalar tətbiqi məqsəd daşımasına baxmayaraq, xüsusi zövqlə bəzədilərək sənət əsəri görkəminə salınırdı. Qazax rayonunda toxunmuş bu heybəni ən gözəl nümunələrdən hesab etmək olar. Çox sadə həndəsi naxışlara bağlar və dəbdəbəli qotazlar əlavə olunmuşdur.



Heybə. Qazax məktəbi, zili texnikası, yun, 108x39 sm, XX əsrin ortaları



Kilim. Qazax məktəbi, yun, pambıq, 370x166 sm, 1940-50-ci illər

Qazax regionunun kilimləri iri naxışları və kontrast rənglərilə seçilir. Enli üfüqi zolaqlar üzərində "qoşa buynuz" adlanan naxışlar yerləşdirilmişdir. Naxışların ritmi rəng seçimində də təkrarlanır.

Məfrəş - xalçadan olan sandıq - yorğan-döşək daşınması üçün nəzərdə tutulmuşdur. Ağ fon üzərində tünd qırmızı və qara rəngli naxışlar olduqca ifadəli görünür. Naxışların ritmi rəng seçimində də təkrarlanır. Xalçaçılar belə naxışı "damğa" adlandırır [4].



Məfrəş. Qazax məktəbi, yun, kilim texnikası, 105x52x60 sm, XIX əsrin sonu

Gəncə xalçaçılıq məktəbi. Azərbaycanın qədim şəhərlərindən olan Gəncənin və onun ətrafının, yaşayış məskəni kimi, tarixi 2500 ilə yaxındır. XI əsrdə Qətran Təbrizi bu şəhəri cənnət diyarı adlandırırdı. Gəncə XII əsr Azərbaycan intibahının mərkəzlərindən biri olmaqla bərabər, bu intibahın görkəmli nümayəndələrindən olan Nizami Gəncəvi və Məhsətinin yaşayıb-yaratdığı şəhər idi. Tarixin müxtəlif dövrlərində çoxsaylı müharibə və zəlzələlərə baxmayaraq Gəncədə sənətkarlıq, incəsənət, elm və poeziya davamlı olaraq inkişaf etmişdir. Gəncə xalçaları regionlara görə üç qrupa bölünür: 1. Gəncədə toxunan xalçalar "Gəncə", "Qədim Gəncə" və "Samux" adını daşıyır. 2. Goranboyda "Çaylı", "Şadlı", "Fəxralı", Gədəbəydə "Gədəbəy", "Çıraqlı" adlanan xalçalar toxunur. 3. Vaxtilə Azərbaycan torpaqları olmuş (indi Ermənistan ərazisindədir) İrəvanın cənubunda yerləşən Çay kənd və Gölkənd kəndlərində toxunan "Qaraqoyunlu" adlı xalçalar da Gəncə xalça məktəbinə daxil olub bu məktəbin bədii ənənələrini davam etdirmişdir.



Məfrəş. Gəncə məktəbi, zili texnikası, yun, 162x65 sm, XX əsrin ortaları

Gəncə məktəbinə daxil olan xalçalar uzunsov ölçülü olub, Qazax məktəbinin xalçalarına nisbətən mürəkkəb kompozisiyaya malikdir. Arasahədə üfüqi və şaquli zolaqlarda bir-birinin arxasınca düzülüb təkrar olunan buta, gül, qönçə təsvirlərilə formalaşan kompozisiyalar bu məktəb üçün xarakterikdir. Bəzən zolaqlarda həndəsi elementlər də yerləşdirilir. Eyni elementin zolaqlarda, bəzən də kvadrat və düzbucaqlılarda ritmik təkrarı, rəng qammasının müxtəlifliyi hesabına daha əlvan və ifadəli olur. Ümumiyyətlə Gəncə xalçalarında naxışların simmetriyası, xırda elementlərdəki dəqiqlik, gəzmə xəttlərinin xüsusi ifadəliliyi diqqəti cəlb edir.

Rəng tərtibatında qırmızı rəng və onun müxtəlif çalarları üstünlük təşkil edir, az da olsa soğanı, noxudu, yaşıl rənglərdən istifadə olunur. Gəncə xalçaları orta ölçülü olub, ilmə sıxlığı 25sm x 25sm-dən, 35sm x 35sm-ə qədərdir. Onların 1 kv. m-də 120000-dən, 160000-ə qədər ilmə yerləşir. İlmə hündürlüyü 6-8mm-dir.



Məfrəş. Gəncə məktəbi, zili texnikası, yun, 162x63 sm, XX əsrin ortaları

Gəncə məktəbinə aid olan uzunsov xovlu xalça. Xalçanın üzərindəki naxış "Çaynik gülü" adlanır. Kompozisiya sadədir. Dördləçəkli gül şəklində olan medalyonlar xalçanın arasahəsinin tərtibatını təşkil edir. Haşiyənin ensiz zolaqları və mərkəzi sahəsi kiçik nəbati naxışlarla bəzədilmişdir. Xalçanın üzərində yazı vardır, "hicri 1312-ci ili (1891-ci il)" [5, s. 8-39].



Xovlu xalça. Gəncə məktəbi, yun, 270x117 sm, XIX əsrin sonu

Şirvan xalçaçılıq məktəbi. Şirvan xalçaçılıq məktəbinin formalaşmasında maldar kəmak tayfalarının və şəhər mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynamış Şirvanşahlar dövlətinin mühüm xidmətləri olmuşdur. Şirvanın və onun paytaxtı Şamaxının adının (Kəmax, Kəmaxeya, Əşşama-Xeya, Kemaxi, Ksamaxi) kəmak (iki oymaq - V.V. Bartold) tayfalarının adı ilə əlaqədar olması haqda tarixi mənbələrdə məlumatlar vardır. Tərəkəmə həyat tərzi keçirən kəmak tayfaları xovsuz xalçalar, o cümlədən zili, sumax, kilim və xovsuz məişət əşyalarının mahir ustaları idilər. Orijinal naxışlara malik Şirvan kilimləri bu gün də Padar, Paşalı, Udullu kəndlərində eyni adlarla toxunur. Həmin kilimlərin əsas bəzəyini qırmızı yerlik üzərində, ağ, sürməyi, sarı rənglərdə olan stilizə edilmiş böyük ölçülü möhtəşəm quş (qartal), durna motivinin arasahədə şahmat üsulu ilə ritmik təkrarı təşkil edir.



“Şirəlibəy”. Şirvan məktəbi



“Ərciman”. Şirvan məktəbi



“Şilyan”. Şirvan məktəbi





“Heybə” – kişi çiyin çantası. Şirvan məktəbi, yun, 109x41 sm, XX əsrin əvvəlləri



“Heybə” – kişi çiyin çantası. Şirvan məktəbi, yun, 107x39 sm, XX əsrin əvvəlləri



“Heybə” – kişi çiyin çantası. Şirvan məktəbi, yun, 100x35 sm, XX əsrin əvvəlləri



Kilim “Pasalı”. Şirvan məktəbi, yun, 280x170 sm, XX əsr



Məfrəş. Şirvan məktəbi, yun, 150x70 sm, XX əsrin əvvəli

Şamaxı xalçaları beş qrupa bölünür: 1. Şirvan qrupuna daxil olan nəfis xovlu xalçalar "Şirvan", "Şamaxı", "Qobustan", "İsrafil" və "Ərclman" adı ilə Şamaxı və onun ətraf kəndlərində toxunur. 2. Mərəzə qrupuna daxil olan xalçalar Mərəzə və onun ətraf kəndlərində toxunaraq "Mərəzə", "Nabur", "Çuxanlı", "Çəyirli", "Cəmcəmli" adlarını daşıyır. 3. Ağsu qrupuna daxil olan xalçalar "Biço", "Qəşəd", "Pirhəsənli" adları ilə toxunur. 4. Kürdəmir qrupuna "Kürdəmir", "Şirvan", "Sor-sor" adlı xalçalar daxildir. 5. Hacıqabul qrupuna "Hacıqabul", "Şirəlibəy", "Qələbə" və "Səlyan" adlı xalçalar aiddir. Hər qrup Şirvan xalçaları bir-birindən kompozisiya və naxış elementlərinə görə fərqlənməklə yanaşı, üslub, toxunma texnikası və rəng baxımından bir-birinə yaxındırlar. Bu məktəbin xalçaları orta ölçülü (10-15 kv.m.) olsa da, bəzən böyük ölçülü (20 kv.m.) gəbələrə də rast gəlinir. İlmə sıxlığı 40sm x 40sm-dən, 50sm x 50sm-ə qədər olur. 1 kv.m-də 160000-dən, 250000-ə qədər ilmə yerləşir. İlmənin hündürlüyü 3-6 mm-ə qədərdir.



Xovlu xalça "Salyan". Şirvan məktəbi, yun, 116x266 sm, XX əsrin əvvəli



Xovlu xalça "Səlyan". Şirvan məktəbi, yun, 220x123 sm, XIX əsrin sonu

"Səlyan" xovlu xalçasının adı Bakının cənub-qərbində, Kür çayının sahilində yerləşən eyni adlı şəhərin adından əmələ gəlmişdir. Bu xalçalar Qaradollu, Şıx Salahlı, Xələc, Qarabağlı kəndlərində toxunur. Fon üçün istifadə edilmiş məxməri-sürməyi rənglə rəsmlərin qızılı-oxra rənginin birləşməsi həmin xalçaları Abşeron qrupunun "Suraxanı" xalçalarına yaxın edir. Bu xalçanın yerli adı "Quşlu"dur. Arasahədə üç medalyonla yanaşı yerləşdirilmiş stilizə olunan tovuzquşları hakim mövqe tutmuşdur.

Əsas istehsal mərkəzi Udullu, Paşalı, Padar, Mərəzə kəndləri və Şamaxı şəhəridir. Kilimin əsas bəzəyini rəngli arasahədə stilizə edilmiş, qeyri-müəyyən formalı elementin bütün sahədə təkrarı təşkil edir. Bu elementlər əslində uçan quş qatarıdır. Elementlər və rənglər ritmik şahmat düzümü ilə təkrar edilir [4].



Kilim. Şirvan məktəbi, yun, 290x165 sm, XX əsrin ortaları

Quba xalçaçılıq məktəbi. Quba xalça məktəbinə çoxsaylı kompozisiyaya malik xalçalar daxildir. Bu məktəbin xalçaları Azərbaycanın digər məktəblərinin (Təbriz istisna olmaqla) xalçalarından daha sıx toxunuşlu olub, naxışlarının xırdalığına, kompozisiyaların mürəkkəbliyinə və harmonik koloritinə görə fərqlənir. Xalçalar əsasən üç qrupa bölünsə də, demək olar ki, hər kəndin özünəməxsus kompozisiyası mövcuddur.

1. Əsrlər boyu Quba və onun kəndlərində "Köhnə Quba", "Quba", "Alpan", "Xırdagülçiçi", "Alçagülçiçi", "Sırçiçi", "Qımıl", "Qədim Minarə", "Hacıqayıb" adlı xalçalar toxunmuşdur.
2. Dəvəçi və onun ətraf kəndlərində "Qaraqaşlı", "Şahnəzərli", "Mollakamallı", "Ləcədi", "Pirəbədil", "Herat Pirəbədil", "Zeyvə", "Zağlı", "Əlixanlı", "Bilici", "Ugah", "Çarax" adlı xalçalar toxunur.
3. Qonaqkənd və onun ətraf xalça məntəqələrində "Qonaqkənd", "Afurca", "Orduç", "Yerfi", "Cek", "Qırız", "Cimi", "Xaşı", "Ərsalan", "Xan", "Səlməsöyüd" adlı xalçalar toxunur.



“Köhnə Quba”. Quba məktəbi, XX əsr. Azərbaycan Xalça Muzeyində saxlanılır



“Qımıl” (II variant). Quba məktəbi



Xovlu xalça “Qonaqkənd”. Quba məktəbi, yun, 194x132 sm, XX əsrin əvvəli

Quba xalçalarının rəngləri harmonik yığcam və ağırdır. Quba xalça məktəbi xovsuz xalçalardan olan sumaxların mərkəzidir. Vaxtilə Şamaxı və onun kəndlərində istehsal edilən sumaxlar XVI-XVII əsrlərdən sonra Qubada toxunmağa başlamışdır. Qubada toxunan sumaxların kompozisiyalarına xovlu xalçaların ciddi təsiri olmuşdur.

Quba xalçalarının sıxlığı 40sm x 40sm-dən, 55sm x 55sm-ə qədərdir. 1 kv.m-də 300000-dən 350000-ə qədər ilmə yerləşir. Quba xalçalarının ölçüsü kiçikdir (1 kv.m-dən, 4 kv.m-ə qədərdir). Lakin uzunsov ölçülü (“Şahnəzərli”, “Əlixanlı”) xalçalar da toxunur. Onların ölçüsü 10 kv.m-dən, 20 kv.m-ə qədər olur. İlmənin hündürlüyü 3-4mm-dir.

“Qonaqkənd” xalçasının adı Qubanın 40 kilometrliyində yerləşən kəndlə bağlıdır. Xalça Dəvəçi və Qusar bölgələrində toxunur. Tünd çəhrayı rəngli medalyon xalçanın qırmızı fonu üzərində olduqca monumental və ifadəli görünür. “Qonaqkənd” xalçasının bir çox variantları mövcuddur [5, s. 8-39].

Abşeron xalçaçılıq məktəbi. Abşeron xalça məktəbinə daxil olan xalçalar əsrlər boyu Bakının "İçəri Şəhəri"ndə, Abşeron yarımadasının Qobu, Güzdək kəndlərində və bir də Xızı xalçaçılıq məntəqələrində toxunmuşdur. "Bakı", "Xilə-buta", "Xilə-əfşan", "Suraxanı", "Novxanı", "Görədil", "Qala", "Fatmayi", "Fındığan", "Qədi" adlanan xalçalar bu məktəbin məşhur məmulatlarındandır. Əgər "Novxanı", "Suraxanı", "Fatmayi" xalçalarının arasahəsini stilizə edilmiş rombvari göllər bəzəyirsə, "Xilə-buta", "Xilə-əfşan" xalçalarının bəzəyini mürəkkəb buta, gül, islimi kimi nəbati naxışlar təşkil edir. Bu iki xalça mürəkkəb naxışlı hesab edilir. "Xilə buta" xalçasında tətbiq edilən "yanar bu ta" adlı ornamentin toxunuşunun çətinliyini nəzərə alan xalçaçılar onu "qız qarıdan" adlandırırlar. Məlum olduğu kimi buta təsviri Azərbaycan incəsənətində hələ e.ə. tətbiq edilmişdir. Mənasına gəlincə, müəyyən dövrlərdə həm alovun, həm tovuzquşunun, həm də həyat ağacının simvolu olmuşdur [5, s. 8-39].



"Xilə-buta". Abşeron məktəbi



"Suraxanı". Abşeron məktəbi



"Xilə-əfşan". Abşeron məktəbi



Kilim. Abşeron məktəbi, yun, 173x318 sm, XIX əsrin axırı – XX əsrin əvvəli

Zərif yaz yunundan əyrilmiş, incə saplarla toxunulmuşdur. Belə kilimlərin əsas istehsal mərkəzi Bakı və onun ətraf kəndləri – Qobu, Xocəsən, Güzdək, Qaladır. Kilimin əsas bəzəyi olan ”Bitik, “Yaüstü”, “Kilimgülü”, “Qoç buynuzu” adlanan elementləri üfüqi istiqamətdə zolaqlarda yerləşdirilmişdir.



Çiyi palaz, Abşeron

Abşeron xalçaları kiçik və orta ölçülü, sıx toxunuşlu, yumşaq və zərif xovludur. Abşeron məktəbi xalçalarının özünəməxsus rəng qamması vardır. Klassik “Bakı”, “Suraxanı”, “Novxanı” xalçalarının rəng tərtibatında məxməri-tünd sürməyi rəngli indiqonun, qızılı-oxra ilə birgə tətbiqi xalçalara kübar görkəm verir. Abşeron xalça məktəbində xovsuz xalçaların da xüsusi yeri var. Qədidəki zililər, Qobudakı kilimlər, Güzdəkdəki çiyi palazlar öz incə toxunuşuna, orijinal kompozisiyasına görə xarakterikdir. Abşeron məktəbi xalçalarının ilmə sıxılığı 40sm x 40sm-dən, 55sm x 55sm-ə qədərdir. Xalçaların 1kv.m-də 160000 - 300000 ilmə yerləşir. İlmələrin hündürlüyü 3-4mm-dir [4].



Xovlu xalça. Abşeron məktəbi, yun, 96x174 sm. XX əsrin ortaları



Kilim. Abşeron

Təbriz xalçaçılıq məktəbi. Təbriz bədii məktəbi rəssamlarının yaradıcılıqlarının fərqli xüsusiyyəti onların çoxcəhətliliyi, rəngarəngliyidir. Təbriz məktəbi çərçivəsində mövcud olan miniatür, memarlıq, xalıçılıq məktəblərinin nümayəndələri plastik və monumental sənətin müxtəlif növlərinin texnologiya və arxitektonikasını əla bilirdilər. Miniatür sahəsində çalışan rəssam eyni zamanda monumental memarlıq tikililərinin bədii tərtibatında və s. şah əsərlər yarada bilirdi.

Dəfələrlə istifadə olunmuş "Təbriz bədii məktəbi", "Təbriz xalı məktəbi" anlayışları müəyyən nəzəri əsaslandırma tələb edir. İncəsənət tarixində "məktəb" anlayışı üslub, mövzu və texnikalar ümumiliyinə malik olan rəssamlar, yaxud bədii əsərlər qrupunu ifadə etmək üçündür. Təbriz xalı məktəbi, özünəməxsusluğu, orijinal xüsusiyyətləri ilə fərqlənən Təbriz bədii məktəbinin çərçivəsində müstəqil, lokal, üslubi hadisə kimi formalaşıb. Bu məktəbin baniləri əsasən kitabxana nəzdində, şah emalatxanalarında çalışan azərbaycanlı rəssamlarla bərabər İran və Orta Asiya rəssamları da idilər. Bu kitabxananın rəssamları - kalliqraflar (xəttatlar), ornamentalçılar (nəqqaşlar), zər vuranlar (müzahhiblər), miniatürçülər və s., elə kanonik

ornamental kompozisiyalar, rəsmlər, janr səhnələri yaradırdılar ki, onları hər bir dekorativ sənət növündə: əlyazmaların tərtibatında, memarlıq dekorunda, divar naxışlarında, parça, xalı və keramika bəzəyində də istifadə etmək mümkün idi [6].

Peşəkar sənətkarlıq məktəbləri haqqında danışarkən, bir daha qeyd etmək lazımdır ki, gözəl sənət əsərləri yaradılan və gələcək rəssamların tədrisi keçirilən kitabxana-emalatxanalar hökmdarların sarayları nəzdində fəaliyyət göstərirdi. "Saray" və "emalatxana" anlayışları bəzən eyni məna kəsb edirdi, çünki emalatxana işçiləri daim tanınmış himayədarların əhatəsində olmuş, onların bədii zövqlərinə sadiq qalmışlar.

İlk yeni üslublu Təbriz xalıları artıq XV əsrin sonu - XVI əsrin əvvəlində yaranmağa başlayır. Bu sıraya XVI əsrin sonu - XVII əsrin əvvəlinə aid olan Vilyamsın şəxsi kolleksiyasında (Pensilvaniya) saxlanılan vəhşi heyvanlar tərəfindən parçalanan qurbanlar süjetli "Bağ" xalısı (ölçü 508x464 sm); Viktoriya və Albert Muzeyindəki XV əsrə aid çoxmedalyonlu "heyvanlı" xalısı (ölçü 549x300 sm); XVI əsrin əvvəlinə aid medalyonlu "Ağaclı" xalısı (ölçüsü 860x570 sm) və s. məşhur nümunələr daxildir [7, s. 1129-1130].

Sonrakı əsrlər boyu üstünlük təşkil edən yeni üslub səlcuq xalılarında təqdim olunan ornamentlərin həndəsi quruluşundan və əvvəlki dövrlərin miniatürlərindən məlum olan xalılardan əsaslı şəkildə fərqlənir. Yeni üslubun əsas xüsusiyyətləri aşağıdakılardır: stilizə olunmuş nəbati ornamentlərin bolluğu, gül motivləri, xətlərin rəvanlığı, rəsmin xüsusi nəfisliyi və incəliyi, zəngin dekorativ bəzəkli ornament, dolğun kontrast koloritli, ahəngdar şəkildə uyğunlaşmış elementlərin və motivlərin bolluğu. Belə təsəvvür yaranır ki, sonsuz naxışlar sanki göz önündəcə çoxalaraq, xalı səthinin hər bir santimetrini tamamlayır.

Təsviri motivlərin ümumi dekorativ naxış sisteminə daxil edilməsi hallarına da tez-tez təsadüf edilir. Ornamentləri təsvir formalarının realistik şərhi ilə tamamlanan xalılar süjetli xalılara aid edilir. Qeyd etmək lazımdır ki, ornamental və təsviri başlanğıcın uyğunluğunda müəyyən məntiq var idi. Yeni üslubun meydana çıxmasına daha əvvəlki əsrlərdə formalaşmış müxtəlif Azərbaycan incəsənət növlərinin inkişafı zəmin yaratmışdır. Bu hər şeydən öncə, xalı bəzəyinin ornamental üslubuna və islamaqədərki təsviri sənətə və islam dövründə təsviri sənətin yeni tərzdə dərk edilməsinə rəvac verən kalliqrafiyaya təsir göstərmişdir.

Təbriz xalı məktəbini səciyyələndirən qanunların formalaşmasını ornamental və təsviri istiqamətlərdə izləmək mümkündür. Birinin əsasında "tətbiqi həndəsənin, dəqiq elmlərin və xüsusən tikinti sənətinin nailiyyəti, digərinin əsasında isə Edem bağına oxşar rahat, dinc təbiətin cənnəti xatırladan poetik mənzərələri durur" [8, s. 153]. Beləliklə, Təbriz xalı məktəbinin müəllifi olduğu ornamental kanonun mahiyyəti nədən ibarətdir?

İlk növbədə, Təbriz məktəbi inkişaf etmiş orta əsr ornamental sənətinin varisidir və yeni, daha yüksək səviyyəyə qaldırılmışdır. İslam dövründə bilavasitə kalliqrafiya sənəti ilə vəhdətdə inkişaf etmiş, ornament, incəliyi və nəfisliyi ilə seçilən mükəmməl xüsusiyyətlər və vahid kalliqrafiya üslubuna yiyələnir, Azərbaycan incəsənətində ornamentin çoxəsrlik inkişafı XVI-XVII əsrlər üçün səciyyəvi olan bir sıra sabit formaların işlənib hazırlanmasına zəmin yaratmışdır. Kalliqrafiya sənətinə böyük diqqət yetirərək yazılı mənbələrdən, ornament-motivlərin kanonik adlarını öyrənirik. Belə ki, Qazi Əhməd "Kalliqraf və rəssamlar haqqında traktat"ında yazır: "Yazıda alu qələm əsas olduğu kimi, elə bu sənətdə də yeddi əsasa hörmət edilir: islimi, xətai, fərəngi, fəsali, əbr, akre, səlami" [9, s. 180]. Lakin traktat müəllifi bu adları sadalamaqla kifayətlənir.

Sadiq bəy Əfşar ornamentin həmin kanonik formalarının adlarını çəkməklə yanaşı, onlara izahat da verir. Bununla bərabər, müəllif kanonik formaların rəssamlara təzyiq göstərmədiyini

və onların yaradıcılıq təxəyyülünü məhdudlaşdırmadığını, yalnız onlardan törəmiş bir çox formalar üçün əsas olduğunu yazır.

Sadiq bəy yeni üslubun səciyyəvi xüsusiyyətlərini də qeyd edir - bu rəsmdən tələb olunan forma və rəvan xətdir. Müəllif dalğavarı və spiral kompozisiyanın əlaqələndirici hissəsini hamar olan "Əfşan"ın spiralı kimi nəzərdən keçirir. A.Qazıyevin qeyd etdiyi kimi, "o zaman ornament sənətkarlığın metodikası onun ayrı-ayrı başlıca elementlərinin təcrübi məşqlərdə tədrisinə əsaslanırdı: onların rəsmləri və adları öyrənilirdi" [10, s. 55].



"Əfşan" kompozisiyalı xalçanın medalyonu. Təbriz xalçaçılıq məktəbi. XVI əsr. 226x162 sm. K.İ.Davidin şəxsi kolleksiyasından. Kopenhagen



XVI əsrdə Azərbaycanın Ərdəbil şəhərindəki "Şeyx Səfi" xalçası. Ölçüləri: 1128x534 sm. Viktoria və Albert Museyi, London [Əliyeva K., 2023, s.182]

Təsadüfi deyil ki, bu gün dünya muzeyləri orta əsr rəssamlarının yaratdıqları zəngin ornamental sistemlərin əsasında yaradılmış ən nümunəvi xalılar bəzəyir. XVI əsrdə Ərdəbildə toxunmuş "Şeyx Səfi" adlanan sufi xalısı hazırda Londonun Viktoriya və Albert muzeyində şüşə altında saxlanılır. Tarixdən məlumdur ki, dünyada iki əsər şüşə altında saxlanılır. Onlardan biri Mikelanjolun yaratdığı "Cakonda" əsəri Fransanın Luvr muzeyində və bir də 56 m^2-lik saray xalısı hesab edilən "Şeyx Səfi" xalçasıdır.

Nyu-Yorkun Metropoliten muzeyində XVII-XVIII əsrə aid Qarabağ xalıları ilə bərabər eyni zamanda Ərdəbildə toxunan namazlıq xalıları saxlanmaqdadır. "Bağçalı" xalıların ən gözəl nümunələri 10 m boyu olub, eni 3,5 m olan A.Konveyin şəxsi kolleksiyasında, digəri isə Nyu-Yorkun Metropoliten muzeyində saxlanılır. "Bağçalı" xalılardan XVI əsrdə toxunmuş nümunəsi hazırda İranın Tehran şəhərində yerləşən Milli Muzeyində saxlanılır.



"Bağçalı" xalı. Təbriz xalçaçılıq məktəbi. XVII asrin sonları.
309x190 sm. Metropoliten Muzeyi, Nyu-York

Filodelfiya şəhərinin İncəsənət Muzeyində isə Təbrizdə toxunmuş "Meşəli" adlı xalı saxlanılır. Bu xalının bir nümunəsi də Nyu-Yorkun Metropoliten Muzeyindədir.



Xovlu yun xalıdan fraqment. Təbriz xalçaçılıq məktəbi. XVI əsrin birinci yarısı.
498x340 sm. Metropoliten Muzeyi, Nyu-York

Qızıl-gümüş saplarla toxunmuş "Simurq quşu ilə Əjdahanın medalyonda təsviri olan" xalılardan biri Vaşinqtonda toxuculuq muzeyində, digəri isə Nyu-Yorkun Metropoliten muzeyində saxlanılır.



Qızıl və gümüş saplarla işlənmiş və simurq quşu ilə əjdahanın mübarizəsini təsvir edən xovsuz ipək xalı. Təbriz xalçaçılıq məktəbi. XVII əsr. 227x131 sm. Toxuculuq Muzeyi, Vaşinqton.
[Gans Ruedin E., 1978, s.117]

Milanın "Poldi-petsoli" muzeyində Qiyasəddin Caminin imzalı "Ovçuluq" kompozisiyalı saray xalısı saxlanılır. Bundan başqa, şah məclisini özündə əks etdirən süjetli "Səfəvi" xalısı Baron Xotvenin kolleksiyasında yerləşir.



Qiyasəddin Cami imzalı ovçular kompozisiyalı saray xalısı (1542-1543-cü illər). Təbriz xalçaçılıq məktəbi. 692x360 sm. Poldi-Petsoli Muzeyi, Milan

Bu məktəbin ən məşhur xalı kompozisiyalarının onlarca variantı olan "Şah Abbası" adlı xalılardan biri Berlində, o birisi isə Londonun Viktoriya Albert Muzeyində saxlanmaqdadır.



Ornamentli "Şah Abbası" xalçası. Təbriz xalçaçılıq məktəbi XVII əsrin əvvəlləri. 269x174 sm. Tissen-Bornemisa Muzeyi, Madrid [11, s. 130]

Qeyd etmək lazımdır ki, Təbrizdə peşəkar rəssamların qələmlərindən çıxan dünyada tanınan xalı-xalçaların nəinki Azərbaycanın Şuşa və Bakı xalçalarına təsiri var, eyni zamanda onların təsiri Türkiyənin Osmanlı dövrü saray xalçalarında və baburların XVII-XVIII əsr saray xalçalarına təsiri vardır.

Nəticə. Nəticə etibarilə demək lazımdır ki, heç bir ölkədə xalça sənətinin inkişafında çoxşaxəli məktəblər yoxdur, bu yalnız Azərbaycana aiddir və nəzərinizə çatdırdığımız bu ayrı-ayrı məktəblərdə lap orta əsrlərdən tutmuş bu günə qədər toxunan xalı-xalçalar, onların nə qədər məşhur olduğunu sübut etməklə bərabər, eyni zamanda bir məqamı nəzərinizə çatdırmaqdır. Azərbaycan incəsənətinin və Azərbaycan xalça sənətinin məşhur bilicilərindən biri olan XX əsrdə yaşamış Lətif Kərimov kimi dahi bir şəxsiyyət nəinki xalça sənətinin inkişafının istiqamətlərini sağkən özünün üçcildli kitabında əks etdirə bildi. O, eyni zamanda yaşadığı dövrdə istər Qubada, istərsə də Bakıda incəsənət məktəblərində xalçaçılıq fakultəsini yaradaraq orada onilliklərlə tələbə yetişdirdi. Məhz onun yaradıcı fəaliyyətinin nəticəsi olaraq, dünyada ilk olan Azərbaycanda Xalça muzeyi yaradıldı ki, bu sənətini bu gününü və sabahını təmin etmiş oldu. Baxmayaraq ki, bu sənətkar eyni zamanda həyatı boyu dünyanın ən böyük xalılarını Stalin və Leninə aid süjetli xalılar və Nizaminin "Xəmsə" əsərini özündə əks etdirən 5 süjetli xalının da müəllifidir. Həmin xalılar hazırda Nizami muzeyinin ekspozisiyasını bəzəyir, o muzeyin ki, şəxsən muzeyin bütün bədii tərtibatının müəllifi olaraq, insanları öz gözəlliyi ilə cəlb edir.

Ədəbiyyat:

1. Керимов Л. Азербайджанский ковер, т. I. Баку, 1961,114 с., с табл.
2. Керимов Л. Азербайджанский ковер, т. II. Баку, Гянджлик, 1983, 241 с., с илл.
3. Керимов Л. Азербайджанский ковер, т. III. Баку, Гянджлик, 1983, 303 с., с илл.
4. Əliyeva K. Azərbaycan Gömrüyü Mədəni İrsin Keşiyində kitabı. Bakı, 2007, İSBN 5-8066-1706-8.
5. Əliyeva K. Elmi məqalələr toplusu. Bakı: Bakı mətbəəsi, 2024, 512 səh.
6. Əliyeva K. Təbriz xalçaçılıq məktəbi. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2023, 240 səh
7. A Survey of Persian art. From prehistoric times to the present. Editor Arthur Upham Pope. V, III, Oxford university press. London and New York, 1939, səh. 1129, 1130
8. Проблемы азербайджанского Ренессанса. Сб.статей. Баку, Элм, 1984, 313 с.
9. История Ирана с древнейших времен до конца XVIII в. / Под ред. акад. В.В.Струве. Изд. Ленинградск. ун-та, 1958, 390 с.
10. Кази Ахмед. Трактат о каллиграфах и художниках. Введение, перевод и комментарии Б.Н.Заходера. М.-Л., Искусство, 1947, 203 с.
11. Gans Ruedin E. Der Persieche Teppich. - Switzerland, 1978, p. 546.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300